İsveçli ixtiraçı Fredik Koltinq insanların həyatını sonuna qədər hesablaya bilən qol saatı ixtira edib.

Fredik Koltinqin sözlərinə görə, “Tikker” adlı qol saatını atasının şərəfinə ixtira edib: “Atamı əbədi itirən zaman çox məyus oldum. Həyatın nə qədər qısa olduğunu anladım. Lakin insanların bu qısa zaman kəsiyində bəzən unutqan olduqları onların həyatda boş yaşamalarına səbəb olur. İnsanlara hər an ölümü xatırlatmaq üçün xüsusi saat kəşf etmək qərarına gəldim. Qoy insanalr bu saat vasitəsilə öləcəkləri günü bilsinlər və yarımçıq qalan işlərini tamamlasınlar”.

Qeyd edək ki, “Tikker” saatını taxıb, xüsusi məlumatları dolduran şəxs insan ürəyilə enerji alır. Bu saat vasitəsilə məlumatlara cavab

olaraq insanın öləcəyi gün tarixinə qədər dəqiqliyi ilə göstərilir